# Cahana sığmayan dahi



Nəsimi Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustadlarındandır. O, Şərqin zəngin mədəni-mənəvi sərvətləri üzərində ucalaraq bədii söz sənətinin qiymətli incilərini yaradıb. Ana dilində şeirin yeni məzmun və bədii lövhələrlə zənginləşməsində mütəfəkkir şairin misilsiz xidmətləri var.

Prezident İlham Əliyevin "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında" və 2019-cu ilin Azərbaycanda "Nəsimi ili" elan olunması haqqında sərəncamlarının icrasını təmin etmək məqsədilə Ağcabədi Regional Mədəniyyət İdarəsinin tabe müəssisələrində silsilə tədbirlər təşkil olunur.

Ağcabədi rayon MKS-nin Mərkəzi Kitabxanasında və filiallarında "2019-cu il "Nəsimi ili"dir", "Nəsimi 650" başlıqlı kitab sərgiləri, "Bədii söz sənətinin mahir ustadı" başlıqlı dəyirmi masa, "Nəsimi yaradıcılığında Azərbaycan dili mövzusu" başlıqlı oxucu konfransları keçirilib.

Mərkəzi kitabxanada keçirilən "Nəsimi poeziyası" adlı bədii qiraət müsabiqəsində müxtəlif yaş qrupundan məktəbli oxucular iştirak edib. MKS-nin direktor müavini T.Məmmədova tədbiri açaraq ölkəmizdə Nəsimi yaradıcılığına göstərilən diqqət və qayğıdan danışıb.

Qeyd edilib ki, Nəsimi ana dilində fəlsəfi şeirin yaradıcısı hesab olunur. Şair həyat və cəmiyyət haqqında bir çox fikirlərini aşiqanə misralar və ya təbiət təsvirləri içərisində söyləyib. Nəsimi yaradıcılığı Azərbaycan poeziyasının və ədəbi dilinin inkişafında mühüm bir mərhələ təşkil edir. O, Azərbaycan şeirinin forma xüsusiyyətlərinin təkmilləşməsində mühüm rol oynayıb, əruz vəzninin bəhrlərini dilimizin xüsusiyyətlərinə uyğunlaşdırmağa çalışıb. Şair ana dilində ilk dəfə müstəzad, mürəbbe və tərcibəndlər qələmə alıb. Onun rübailərində hürufiliyin müddəaları, şairin fəlsəfi görüşləri, həyat və kainat haqqında düşüncələri yığcam və məntiqli bir dildə ifadə olunub.





Çıxışdan sonra müsabiqə iştirakçıları Nəsiminin şeirlərini söyləyiblər. Sonda nəticələr elan olunub. Şəhər 4 saylı tam orta məktəbin şagirdi Elgün Quliyev 1-ci yerə, həmin məktəbin birinci sinif şagirdi Vahid Məmmədov 2-ci yerə, şəhər 3 saylı məktəbin 8-ci sinif şagirdi Nurcan Xəlilova və şəhər 4 saylı məktəbin şagirdi Heydər Məmmədov üçüncü yerə layiq görülərək fəxri fərmanla təltif ediliblər.



Ağcabədi şəhər 1 nömrəli tam orta məktəbdə ədəbi-bədii gecə keçirilib.

Məktəbin direktoru Səadət Kazımova, müəllimə Dilarə Qafarova şairin yaradıcılığı barədə məlumat veriblər. Tədbir iştirakçıları Nəsiminin həyat və yaradıcılığından bəhs edən videoçarxa baxıblar. Yuxarı sinif şagirdlərinin ifasında "Nəsimi" filmindən Şirvanşah İbrahimlə şairin söhbətini əks etdirən səhnə maraqla qarşılanıb. Sonra məktəblilər şairin qəzəllərini söyləyiblər. Məktəbin şagirdi Xumar Məmmədova Nəsiminin portretini çəkib.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialında da dahi Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş tədbir təşkil edilib.

***

Ağcabədi Regional Mədəniyyət İdarəsinin tabeliyindəki Ağdam rayon MKS-nin Mərkəzi Kitabxana və filiallarında mütəfəkkir şairə həsr olunan "Qəlblərdə yaşayan şair", "Ağıla və qəlbə işıqsaçan şair", "Bəşər şairi", "Əbədiyaşar Nəsimi" və s. mövzularda kitab sərgiləri təşkil edilib.

Mərzili kənd kitabxanasında "Dahi Azərbaycan şairi – Nəsimi" adlı dəyirmi masa keçirilib. II Əhmədağalı kənd kitabxanasında gerçəkləşən "Əbədiyaşar söz sərkərdəsi" mövzulu məruzədə şairin yaradıcılığının məziyyətlərindən söz açılıb.

Mərkəzi kitabxanada "İnsanpərvərlik və azadlıq nəğməkarı", "Könüllər fatehi" adlı dəyirmi masalar təşkil edilib, "Ölümü ilə ölməzlik qazanan Nəsimi" adlı məruzə dinlənilib.

Şıxbabalı kitabxanasında "Əbədiyyət üfüqlərində doğmuş eşq günəşi", Zəngisalı kitabxanasında "Haqq mənəm, Haqq məndədir, haqq söylərəm", Həsənxanlı kənd kitabxanasında "Elmdə ürfana ümman olan şair" adlı poeziya gecəsində şairin əsərləri qiraət olunub.







Rayonun I Əhmədağalı kənd kitabxanasında "Altı əsr yarım mərdlik simvolu" mövzusunda dəyirmi masa, eləcə də Qalayçılar kənd kitabxanasında "Yad et məni" mövzusunda ədəbi-bədii gecə, Gülablı kənd kitabxanasında isə "Günəşə bənzəyən şair" mövzusunda bədii qiraət saatı təşkil olunub.

***

Regional idarənin əhatə etdiyi Laçın rayon MKS-nin Xidmət şöbəsində "Nəsimi ili" və "İmadəddin Nəsimi 650" başlıqlı sərgilər təşkil edilib. Bundan əlavə, şairin əsərlərinin yer aldığı nəşrlərin təqdimatına həsr olunan dəyirmi masa keçirilib.

MKS-nin direktoru Ofeliya Şükürova şairin həyat və yaradıcılığı haqqında danışıb.

MKS-nin Xidmət şöbəsinin təşkilatçılığı ilə Laçın rayon 23 saylı tam orta məktəbdə mütəfəkkir şairin yaradıcılığına həsr olunmuş "Nəsimi poeziyası" adlı bədii qiraət müsabiqəsi keçirilib. Müsabiqədə müxtəlif yaş qrupundan olan məktəbli oxucular iştirak edib. Tədbirdə kitabxananın şöbə müdiri İ.Xıdırova Nəsiminin söz dünyasından danışıb. Qeyd edib ki, şairin şeirləri, ictimai-əxlaqi düşüncələr axarına diqqət yetirəndə onun həqiqətə necə yaxın olduğunu görürük. O, maddi dünyada ilahi gözəlliyi görmək qabiliyyətini nümayiş etdirdiyi üçün əbədi ömür qazanıb.

***

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə bu il ikinci dəfə keçirilən "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalının Ağcabədidə gerçəkləşən tədbirində regional idarənin tabeliyindəki MKS-lər "Nəsimi 650" başlıqlı sərgilər təqdim ediblər. Ağcabədi MKS-nin kitab guşəsinin qarşısında Nəsimi obrazında olan məktəblilər şairin qəzəllərini söyləyiblər. Tədbirdə həmçinin "Nəsimi" filmindən parçalar nümayiş etdirilib. Şagirdlərin ifasında hazırlanmış səhnəcik və qəzəllərin qiraəti maraqla qarşılanıb.

Festivalın sərgi hissəsində Sərvər Abdullayevin əl işləri – vaxtilə Ağdamda gözoxşayan tikili olmuş "Çay evi" və Ağdam məscidinin kibrit çöplərindən hazırlanan maketləri də ziyarətçilərdə böyük maraq doğurub. Festivalın konsert proqramında folklor kollektivlərinin rəqsləri ilə yanaşı, "Qarabağ şikəstəsi", "Yaşa, mənim xalqım", "Qonaq gəl bizə" və s. mahnılar səsləndirilib.





Mədəniyyət: xüsusi buraxılış.- 2019.- iyul. S. 24-25.